UOT 37.01.

***Gülbəniz Vaqif qızı Sultanova,***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Bakı Qızlar Universitetinin kafedra müdiri*

# ŞAGİRDLƏRİN ÖZÜNÜTƏRBİYƏSİ

***Гюльбениз Вагиф гызы Султанова,***
*доктор философии по педагогике,*
*заведующая кафедрой Бакинского Университета для Девушек*

# САМОВОСПИТАНИЕ УЧАЩИХСЯ

***Gulbaniz Vagif Sultanova***
*PhD in pedagogy,*
*Head of the Department of Baku University for Girls*

# STUDENTS' SELF-EDUCATION

**Xülasə:** Şagirdlərin özünütərbiyəsi həmişə olduğu kimi yeni təfəkkür şəraitində də aktuallığını özündə saxlayır.

Məktəblilərin özünütərbiyəsinin istiqaməti və səmərəliliyi pedaqoji təsirin üslubundan, müəllimin şəxsiyyətindən asılıdır. Özünütərbiyənin planlı, məqsədyönlü pedaqoji proses olmasından ötrü xüsusi pedaqoji şərtlər mövcud olmalıdır. Müəllimin öz fəaliyyətində humanist pedaqogikaya əsaslanması vacibdir.

***Açar sözlər:*** *tərbiyə, özünütərbiyə, özünütərbiyə prosesi, şagirdlərin özünütərbiyəsi, müəllimin fəaliyyəti*

**Резюме:** От стиля педагогического воздействия, от личности учителя во многом зависит направление и эффективность самовоспитания школьников. Возникает необходимость создания специальных педагогических условий, которые позволили бы превратить разрозненные акты самовоспитания в плановый, целенаправленный педагогический процесс.

Для оказания педагогической поддержки по актуализации самовоспитания одних профессиональных педагогических умений недостаточно. Необходимо, чтобы воспитатель стоял на позициях гуманистической педагогики

***Ключевые слова***: *воспитание, самовоспитание, процесс самовоспитания, самовоспитание учащихся, деятельность учителя*

**Summary:** The direction and effectiveness of self-education of schoolchildren largely depends on the style of pedagogical influence, on the personality of the teacher. There is a need to create special pedagogical conditions that would allow turning the isolated acts of self-education into a planned, purposeful pedagogical process.

To provide pedagogical support for the actualization of self-education, professional pedagogical skills alone are not enough. It is necessary that the teacher be in the position of humanistic pedagogy.

***Keywords:*** *updringing, self-education, self-education process, pupils' self-education, teacher activity*

Pedaqogika dərsliklərində, pedaqoji ədəbiyyatda və tədqiqat işlərində "tərbiyə" sözü ilə yanaşı "özünütərbiyə" anlayışına da müraciət edilir. Həm tərbiyə, həm də özünütərbiyə böyüyən nəslin Vətənimizə, ailələrimizə layiqli vətəndaşlar kimi formalaşmasına, nümunəvi davranışa və rəftara, dünyagörüşünə malik olmasına, vətənpərvər kimi yetişmələrinə xidmət edir.

Məhz tərbiyə və özünütərbiyə sayəsində uşaq və yeniyetmələrin, gənclərin mənəvi aləmi zənginləşir, əxlaqı saflaşdırılır. Onlar ailənin, məktəbin, ölkəsinin, doğma diyarının şərəfini

qoruyur, milli mənlik şüuruna, milli və şəxsi şərəf və ləyaqət hisslərinə yiyələnirlər.

Özünütərbiyə yolu ilə bir çox müvəffəqiyyətlərə nail olmaq mümkündür.

K.D. Uşinski öz üzərində yorulmadan çalışmışdır. Uşinskinin fikrincə, onu özünütərbiyəsində aşağıdakı məsələlərin rolu böyük olmuşdur: "1. Tam rahatlıq, xüsusən daxili. 2. Sözdə və əməllərində doğruluq. 3. Hərəkətlərini ölçüb-biçmək. 4. Qətiyyət. 5. Ehtiyaj olmadan özü barədə bir kəlmə belə deməmək. 6. Vaxtı şüursuz (bihudə yerə) keçirməmək, baş verəcə biləcək şeyi yox, istədiyin şeyi etmək. 7. Ehtirasa deyil, yalnız zəruri olana, yaxud xoş olana yer vermək. 8. Hər axşam öz hərəkətlərin barədə vijdanla özünə hesabat vermək. 9. Bir dəfə belə olsun olanlara görə öyünmə, olana və ola biləcək şeyə görə də öyünmə".

Tərbiyə və özünütərbiyə prosesləri nə qədər yaxın və qarşılıqlı əlaqədə olsalar da, özlərinə xas səciyyəvi xüsusiyyətlərə də malikdirlər.

Professor A.N. Abbasovun qənaətlərini yada salaq: "Tərbiyə (*geniş mənada*) dedikdə, ailədə və tədris-tərbiyə müəssisələrində müsbət keyfiyyətləri formalaşdırmaq, nümunəvi davranış vərdişləri aşılamaq üçün məqsədyönlü, sistemli, fasiləsiz və mütəşəkkil şəkildə həyata keçirilən proses anlaşılır.

Məhdud mənada TƏRBİYƏ dedikdə isə, uşaqda bu və ya digər keyfiyyətin (xeyirxahlıq, düzlük və doğruçuluq, vətənpərvərlik, əməksevərlik, böyüyə hörmət və s.) inkişaf etdirilməsi məqsədilə tətbiq olunan təsirlər sistemi nəzərdə tutulur" (1, s. 6).

Professor özünütərbiyəyə aşağıdakı tərifi verir: "Özünütərbiyə dedikdə, şəxsiyyətin (şagirdin, uşağın) ictimaiyyətin təqdir etdiyi müsbət keyfiyyətləri və davranış təcrübəsini özündə təkmilləşdirmək; mənfi sifətlərdən və naqis hərəkətlərdən azad olmaq üçün öz üzərində sistemli, məqsədyönlü və planlı şəkildə apardığı dərkedilmiş fəaliyyət anlaşılır" (1, s. 229).

Tərbiyə prosesi ilə bilavasitə müəllim və tərbiyəçilər məşğul olurlarsa, özünütərbiyə ilə uşaqların, yeniyetmə və gənclərin özləri məşğul olurlar, öz nöqsanlarını özləri anlayaraq düzəltməyə çalışırlar. Təhsilalanların tərbiyəsinə pedaqoji rəhbərlik həyata keçirilir. Özünütərbiyə isə o demək deyildir ki, uşaq və yeniyetmələr, şagirdlər pedaqoji nəzarət olmadan öz-özlərini tərbiyə edirlər. Burada da böyüklərin nəzarəti, rəhbərliyi lazımdır.

Şeyx Şihabəddin Sührəvərdinin aşağıdakı kəlamları vardır: "Tut yarpağı tədricən atlas olduğu kimi. Düzgün təlim-tərbiyə sayəsində hər bir şəxs də get-gedə həqiqi insana çevrilə bilər" (2, 135).

Şagirdlər məktəbdə, küçədə, ictimai yerlərdə özlərini yaxşı aparmadıqda, pis davrandıqda, dalaşdıqda, söyüş söydükdə, təlimdə yetirmədikdə onlara irad tutulur. Onların bir qismi bu iradlardan nəticə çıxarsalar da, məktəblilərin başqa qismi müəllimlərin, valideynlərin öyüdnəsihətlərini qulaq ardına vurur, onlara qulaq asmaq istəmirlər.

Bütün buları nəzərə alaraq, təhsilalanların özünütərbiyəsi işini təşkil etmək lazımdır.

İstər respublikamızda, istərsə də MDV məkanına daxil olan ölkələrdə özünütərbiyə problemi ilə bağlı bir sıra tədqiqatlar aparılmışdır. Diqqət yetirək: Pedaqoji elmlər doktoru elmi dərəcəsi almaq üçün V.S. Bıkov "Məktəblilərin fiziki özünütərbiyəsinin aktuallaşdırılmasının nəzəriyyəsi və praktikası" (4) və A.Y. Sovinski "Özünütərbiyə yuxarı sinif şagirdlərinin səmərəli tədrisinin inteqral meyarı kimi" (6) mövzularında; pedaqoji elmlər namizədi elmi dərəcəsi almaq üçün M.D. Kuzmiçeva "Kiçik yaşlı şagirdlərin özünütərbiyəsinin aktuallaşdırılmasının pedaqoji şərtləri" (3), N.A. Fandina "Tələbələrin kiçik yaşlı məktəblilərin özünütərbiyə prosesini təşkil etməyə hazırlanması" (5), E.S. Kulmametova "Fiziki mədəniyyət məşğələləri prosesində 11-13 yaşlı məktəblilərin fiziki özünütərbiyəsinin fəallaşdırılması" (7), A.Y. Aret. Özünütərbiyə nəzəriyyəsinin əsas müddəaları (8) mövzularında dissertasiya müdafiə etmişlər.

Nümunələrə müraciət edək: A.Y. Aret yeniyetmələrin özünütərbiyəsi prosesini tədqiqata cəlb etmişdir. Onun qənaətincə, "Adi hallarda yeniyetmələrin özünütərbiyəsində ona görə uğurlar qazanmaq olmur ki, onlar özünütərbiyə, özünüqadağan, özünüanlama, özünüdərk, özünüqiymətləndirmə, özünənəzarət, özünütənqid, özünüvadaretmə, özünüinandırma, özünütəyin, özününizamlama, özünəəmr, özünüyoxlama, özünüidarə, özünəvədvermə, özünüməhdudlaşdırma, özünüməcburetmə, özünüjəzalandıpma fikrindən daşınma və s. bu kimi anlayışların mahiyyətini lazımınca anlamırlar. Lakin özünütər-

biyə prosesində həmin anlayışların mənasını bilmək bir elə vacib deyildir" (8, s. 29).

M.D. Kuzmiçeva öz tədqiqatında aşağıdakı məsələləri diqqət mərkəzinə gətirmişdir: 1. Özünütərbiyənin psixoloji-pedaqoji əsasları: 1.1. Özünütərtbiyə probleminin nəzəri məsələləri. 1.2. "Özünütərbiyə" və "özünüinkişaf" kateqoriyalarının inteqrativ əsasları. 1.3. Kiçik yaşlı məktəblilərdə özünütərbiyənin təzahürü səviyyəsinin məzmun-funksional xüsusiyyətləri.

2. Kiçik yaşlı məktəblilərin özünütərbiyəsinə tələbatın formalaşması üzrə eksperimental iş: 2.1. İbtidai siniflər şagirdlərinin özünütərbiyəsinin aktuallaşdırılması prosesinin pedaqoji idarəolunması. 2.2. Kiçik yaşlı məktəblilərin özünütərbiyəsinin aktuallaşdırılması prosesinin təşkilati-məzmun baxımından təminatı. 2.3. Kiçik məktəb yaşlı uşaqların özünütərbiyəsi proqramının həyata keçirilmə texnologiyası.

M.D. Kuzmiçeva tədqiqatı ilə bağlı aşağıdakı nəticələrə gəlmişdir: Kiçik məktəb yaşlı uşaqların özünütərbiyəsinin pedaqoji baxımdan aktuallaşdırılması prosesi özündə 5 mərhələni əhatə edir:

1. Şagirdlərin özünütərbiyəsinin aktuallaşdırılması üzrə işə pedaqoji kollektivin pedaqoji baxımdan hazırlanmasının məqsəd və vəzifələrinin müəyyənləşdirilməsinə yönələn problemli təhlil.

2. Bu işin layihələndirilmədi.

3. özünütərbiyənin aktuallaşdırılmasına istiqamətlənən nəzəri, elmi-metodik və praktik fəaliyyətin planlaşdırılması.

4. Kiçik yaşlı məktəblilərin əqli, mənəvi, estetik, əmək, fiziki, ekoloji tərbiyəsini, həmçinin özünütərbiyəsinin aktuallaşdırılmasını nəzərdə tutan proqramın həyata keçirilməsi.

5. Kiçik yaşlı məktəblilərin özünütərbiyəsinin aktuallaşdırılmasını prosesinin gedişinə nəzarət" (3).

Tədqiqatlardan görünür ki, özünütərbiyəni onun bu və ya digər konkret anlayış və priyomları ilə eyniləşdirməyin heç bir əsası yoxdur.

Özünütərbiyəyə problemi L.İ. İqnatoviçin tədqiqatlarından da kənarda qalmamışdır. O, özünütərbiyəni insanın sosial təcrübəni öyrənməsi səyi, özünün həyati məqsədlərinə müvafiq gələn ideala uyğun mənəvi keyfiyyətlərin formalaşması kimi nəzərdən keçirmişdir (9).

Özünütərbiyə problemi həmişə öz aktuallığı ilə diqqəti cəlb etmişdir. Respublikamızda problemin tədqiqi vəziyyəti necədir?

Azərbaycan pedaqoqları və psixoloqları yeri gəldikcə öz əsərlərində, dərslik və dərs vəsaitlərində özünütərbiyə məsələlərinə bu və ya digər dərəcədə toxunmuşlar. Bu fikir baxımından akad. M.M. Mehdizadəyə müraciət etmək məqsədəuyğun olardı. Akademik yazırdı: "Özünütərbiyə tərbiyənin ayrılmaz hissəsidir və onu zənginləşdirir. Özünütərbiyə gəncin kortəbii deyil, əvvəlcədən nəzərdə tutulmuş, şüurlu fəaliyyətidir ki, şəxsiyyətin dərk olunmuş çatışmazlıqlarını aradan götürməsi və yeni müsbət keyfiyyətləri aşılamasına xidmət edir" (12).

Hələ 1961-ci ildə prof. Ə.S. Bayramovun "Gənclərin özünütərbiyəsi haqqında" kitabça (10) nəşr olunmuşdu.

Prof. Ə.S. Bayramov özünütərbiyəyə aşağıdakı tərifi vermişdir: "İnsanın özündə arzu etdiyi sifətləri, keyfiyyətləri inkişaf etdirməsi və ya malik olduğu şəxsi keyfiyyətlərin dəyişdirilməsi üçün özünə şüurlu, planlı, məqsədəuyğun və müntəzəm surətdə təsir göstərməsinə, özünütəşmilləşdirmək qayğısına özünütərbiyə deyilir" (10, s. 7).

M.Ş. Məlikov yeniyetmələrin özünütərbiyəsini əhatə edən namizədlik dissertasiya (11) müdafiə etmişdir.

M.Ş. Məlikov da özünütərbiyənin mahiyyətinə aydınlıq gətirmişdir. Diqqət edək: "Özünütərbiyə şəxsiyyətin formalaşması üçün özünətələbkarlığın, özünəqiymətin yaranmasına, düşünülmüş şəkildə öz fəaliyyətinin nizamlanmasına yönəlmiş bir prosesdir" (11, s. 21).

Özünütərbiyə problemi prof. Ə.Ə. Ağayevin də diqqətində olmuşdur. Professor yazırdı "Özünütərbiyə insanın nəinki özünü təkmilləşdirməsinə, hətta insandakı təbii qüsurların aradan qaldırılmasına kömək edir. Fiziki möhkəmlik, əxlaqi saflıq, səylilik və yorulmazlıq özünütərbiyə nəticəsində inkişaf etdikcə, insanın məqsədyönlü fəaliyyətini təmin edir, arzuya qanad verir və məqsədə çatmaqda stimul olur" (13, s. 18).

Göründüyü kimi, təriflər müxtəlifdir. Lakin hər halda özünütərbiyənin mahiyyətinin açılmasına xidmət göstərir.

Özünütərbiyə il bağlı prof. M.Ə. Həmzəyevin də tərifi vardır. Tərifdə göstərilir: "Özünütərbiyə insanın şüurlu olaraq qarşısına qoydu-

ğu məqsədə, ideala və inamlarına müvafiq olaraq öz şəxsiyyətində dəyişikliklər etməyə yönəlmiş fəaliyyətdən ibarətdir" (14, s. 41).

Bütün yuxarıda deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, yeni pedaqoji təfəkkür şəraitində özünütərbiyə aktuallığını özündə saxlayır, tərbiyə işinə qayğı ilə yanaşmaqla yanaşı, təhsilalanları özünütərbiyə işinə də həvəsləndirmək, onlarda özünütərbiyəyə tələbat formalaşdırmaq lazımdır.

**Problemin aktuallığı.** Şagirdlərin özünütərbiyəsi həmişə olduğu kimi yeni təfəkkür şəraitində də aktuallığını özündə saxlayır.

**Problemin yeniliyi.** Şagirdlərin özünütərbiyəsi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar, müəllimlər üçün faydalı ola bilər.

## Ədəbiyyat:

1. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2015.

2. Müdrik sözlər. Bakı: Yazıçı, 1979.

3. Кузьмичева М.Д. Педагогические условия актуализации самовоспитания младших школьников: Дис. …канд.пед.наук. Ставрополь, 2006.

4. Быков В.С. Теория и практика актуализации физического самовоспитания школьников: Дис. …докт.пед.наук. Челябинск, 1999.

5. Фандина Н.А. Подготовка студентов к организации процесса самовоспитания младших школьников. Брянск, 2004.

6. Совиньский А.Я. Самовоспитание как интегральный критерий эффективного воспитания старшеклассников: Дис. …докт.пед.наук. М., 2004.

7. Кульмаметьева Э.С. Активизация физического самовоспитания школьников 11-13 лет в процессе занятий физической культурой: Дис. …канд.пед.наук. Омск, 2013

8. Арет А.Я. Основные положение теории самовоспитания: Автореф. дис. докт. … пед. наук. Л., ЛГПИ им. А.И. Герцена, 1964.

9. Игнатович Г.И. Книга о самовоспитании // Народное образование, 1984, № 8

10 . Bayramov Ə.S.Gənjlik və özünütərbiyə haqqında söhbət. Bakı: Gənclik, 1969.

11. Məlikov M.Ş. Yuxarı sinif şagirdlərinin özünütərbiyəsi üzrə işin sistemi: Ped. elm.nam. …dis. Bakı, 1999.

12. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982.

13. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006, 138 s.

14. Həmzəyev M.Ə. Pedaqoji psixologiya: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Maarif, 1991.

**E-mail:** gulbaniz.sultanova@mail.ru
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli
**Redaksiyaya daxil olub**: 26.12.2018